

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 fevral 2024-cü il №12 (2823) https://mod.gov.az Qiyməti 30 qəpik

## “Hərbi qulluqçuların statusu haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə”nin təsdiq edilməsi barədə”, “Əmək pensiyaları haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 16-cı və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır**:

**Maddə 1**. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 79; 1993, № 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 378; 1998, № 1, maddələr 15, 16; 1999, № 4, maddə 228, № 5, maddə 286; 2001, № 6, maddələr 362, 363, № 11, maddə 694, № 12, maddələr 731, 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddələr 199, 212, № 7, maddə 507, № 8, maddə 596; 2005, № 10, maddə 871, № 12, maddə 1093; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 6, maddə 561, № 8, maddə 756, № 11, maddələr 1053, 1078; 2008, № 3, maddə 156, № 6, maddələr 462, 481, № 8, maddə 709, № 12, maddə 1048; 2010, № 3, maddə 171, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2014, № 11, maddə 1333; 2015, № 10, maddə 1085; 2016, № 6, maddə 1011; 2020, № 6, maddə 669, № 7, maddə 826, № 12 (I kitab), maddə 1425; 2021, № 6 (I kitab), maddə 542, № 7, maddə 706; 2022, № 5, maddə 433) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 14-cü maddənin 2-ci hissəsində "müəssisələrinin qiyabi şöbələrində" sözləri "müəssisələrində müvafiq icra hakimiyyəti orqanının rəsmiləşdirilmiş icazəsi olduqda" sözləri ilə əvəz edilsin;

1.2. 18-ci maddənin 1-ci hissəsinin ikinci abzasında "beş" sözü "on" sözü ilə əvəz edilsin.

**Maddə 2**. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, №11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab), maddə 2207; 2018, № 12 (I kitab), maddə 2488; 2019, № 2, maddə 180; 2020, № 6, maddə 669, № 7, maddə 827; 2021, № 6 (I kitab), maddə 544, № 7, maddə 699, № 8, maddə 897; 2022, № 8, maddə 830; 2023, № 2, maddə 189) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**(Ardı 2-ci səhifədə)**

## Sağ ol, Azərbaycan əsgəri!



İkinci Qarabağ müharibəsindən əvvəl cəbhə bölgələrinə yaxın kəndlərdə yeniyetmələrin də, uşaqların da əsgərləşdiyini görəndə qəlbimiz dağa dönürdü. O vaxtlar əli silah tutanların hamısının döyüş əzmi məcrasını aşırdı, hamı "Hər birimiz bir əsgərik!" çağırışını ürəkdolusu yaşayırdı. Bu çağırış Vətənin çağırışı idi. O vaxtlar ağaclar ayrı cür böyüyürdü, çeşmələr ayrı cür qaynayırdı, bulaqlar ayrı cür axırdı, şimşəklər ayrı cür çaxırdı, dan yeri ayrı cür sökülürdü, Gün ayrı cür yaxırdı. Ağacda budaq, budaqda yarpaq, sellənən dərə, güllənən çəmən, dillənən bulaq, yaraları qaysaqlamayan torpaq deyirdi ki, "Döyüşün, Azərbaycan əsgəri!". Azərbaycan əsgəri bu harayları ruhuyla eşidirdi...

İkinci Qarabağ müharibəsindən iki gün əvvəl Beyləqanda ezamiyyətdəydik. Təlim başa çatmışdı. Zabitlər qürurla əsgərlərə baxırdılar; tapşırıq yerinə yetirilmişdi. Söhbətləşirdik. Əsgərlərdən birinin baxışlarını bürüyən niyyətdə doğmalıq görmüşdüm. Sözarası "Bu nə könül qubarıdı, igid əsgər?" soruşmuşdum. Əsgər yoldaşlarına baxmışdı. Baxışlarında çırpınan, sezilən, duyulan niyyət vardı. Əsgər səmimi sualımı səmimiyyətlə cavablamışdı: "Həmişə səngərlərdən döyüşə başlamaq istəmişik. Əmr verilmir. Kaş bu təlimdən sonra döyüşə başlamaq əmri veriləydi". Əsgərin dedikləri döyüş əzmi idi. Qürurlanmışdıq. Sentyabrın 27-də düşmənin hücumunun qarşısını alanların sırasında həmin əsgər də olub, həmin əsgərlər də. Onlar da qətiyyətlə döyüşüblər. Əminliklə həmin günün könüllər dünyasını nurlandıran işığını görürəm. Mən də səsimi səslərlə qoşalaşdırıb deyirəm ki, "Sağ ol, Azərbaycan əsgəri!"...

İşğalçı Ermənistan Azərbaycandan işğal etdiyi ərazilərdə yaratdığı sədləri möhkəmləndirirdi, havadarlarının siyasi və hərbi yardımlarına sığınıb danışıqlardan yayınırdı, bu vəziyyəti siyasi (və hərbi) nəhayətsizliyə yönəltməyə niyyətliydi ki, Azərbaycanın torpaqları hesabına ikinci erməni dövləti yaratsın. Bunun üçün qurduğu sədləri sərhədlərə çevirməyəmi niyyətliydi? - Azərbaycanda azərbaycançılıq, vətənsevərlik, dövlətçiliyə, dövlətə sədaqət, döyüş əzmi, qələbə ruhu səngərlərə sığışmırdı, döyüş növbətçiliyindən döyüşə can atırdı. Zamanında əsgər olmuş oğulların - şəhidlərimizin ruhu deyirdi: "Döyüşün, əsgər qardaşlarım!".

İkinci Qarabağ müharibəsi başladı...

Azərbaycan Ordusunun hissələri əks-hücum əməliyyatı ilə düşmənin niyyət sədlərini çiğnayıb keçdi, inadını qırdı, inamını çiliklədi, ümidini sındırdı. Onda -

daşlara çırpılanda
Düşmənin şikəst səsi,
Azərbaycan əsgərini
Döyüşə aparırdı
"Qarabağ şikəstəsi"...

Vətən müharibəsiydi, Vətənin müharibəsiydi. Hər yan döyüşürdü, Azərbaycan əsgərinin döyüşləri yad gözünə heyrət idi, "Ana!", "Vətən!", "Ana Vətən!" deyənlərə "Heyratı"ydı, min illərin adı ilə Azərbaycan döyüşürdü...

Şuşa-Laçın yolunda düşmənlə qarşılaşanda komandir döyüş əmri verib. Bu döyüşün sonunda Şuşa vardı, Şuşadan o yanda - işğalı son nəfəsinə bürməyəcək Qələbə. Şuşa üçün döyüşürdülər, ürəklərdən keçib Şuşanın dağlarına çatmış niyyəti gerçəkləşdirmək üçün döyüşürdülər. Bu döyüşü son döyüş bilib döyüşürdülər. Yolu keçmişdilər. Ağaclığa çata-çatda döyüşçülərdən biri yaralanıb. Sağ qoluna, ayağına güllələr dəyib. Tərpənməyə heyi qalmayıb. Döyüşçülərdən biri bunu hiss edincə atışa-atışa ona yaxınlaşıb. Döyüşçünün yaralarını sarıyıb. Qan kəsməyəndə kimisə köməyə çağırmaq istəyib. Azca dikələndə yaralının pıçıltısını eşidib: "Sağ ol, qardaş". Təşəkkür biçimli vida kəlmələri döyüşçünün gözlərindən yaş dərib, sarğı islanıb. Köməyə çatmış döyüşçü yaralının kəlmələrini eşidə bilməyib - düşmən snayperi onu vurub...

Vətən müharibəsində şəhid anası döyüşən ordunun əsgərlərinə ünvanladığı məktubda yazmışdı: "Döyüşün, oğlum, qalib gəlin. Qələbənizdən sonra qarşıma çıxan ilk əsgəri şəhid oğluma əvəz bağrıma basacam...". Əminəm ki, həmin Ana əhdini yerinə yetirib, göz yaşları yanağını közə döndərə-döndərə qarşısına çıxan əsgərlərin hamısına "Sağ ol, oğlum, sağ ol, Azərbaycanımın əsgər balası!" deyib. Anaların səsi Ananın səsiylə doğmalaşıb. Bu doğmalaşma 8 Noyabrın qürurunun, sevincinin bayrağına dönüb: Ömrümüzə işıq oldu Zəfər günü!..

2020-ci il oktyabrın əvvəllərində müharibəyə aparan yollardan birinin yolçusuydum. Maşınımız dayananda bir qədər aralıda döyüşə gedən əsgərlərlə uşaqların necə doğmalıqla sağollaşdığını görmüşdüm. 7-8 yaşlı uşaq hərbi səhra geyimli tanımadığı əsgərin boynunu qucaqlamışdı. Səsi aydınlığıyla eşidilirdi: "Sağ ol, əsgər qardaşım! Gedin. Qalib gəlin...".

2020-ci ilin 8 noyabrında "Mən azərbaycanlıyam!" deyənlər də, Azərbaycana ehtiramı olan dövlətlərin vətəndaşları da, dünyəvi niyyətlərlə yaşayanlar da var səsiylə demişdi: Sağ ol, Azərbaycan əsgəri!..

2020-ci il noyabrın 8-i günü xalqın sevinci evlərə sığışmadı, səhərəcən qüdrətin, Vətənə sevginin, tariximizin harayları göy üzünün tülünə döndü: Sağ ol, Azərbaycan əsgəri! 2023-cü il 19 Sentyabr döyüşləri 44 günlük Vətən müharibəsinin məntiqi davamı oldu. Onda da eyni ovqat yaşanıldı...

2023-cü ilin 8 Noyabrında Xankəndidə yaşanılan qürur bu qürurları elə gözəl tamamladı ki!...

Ruhumzun dolaşdığı yerlər əsgərlərimizin nəfəsi ilə isindikcə deyiləcək ki, "Sağ ol, Azərbaycan əsgəri!"...

**"Azərbaycan Ordusu"**

### "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

**(Əvvəli 1-ci səhifədə)**

2.1. 13-cü maddənin birinci hissəsi üzrə:

2.1.1. birinci abzasda "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 39-cu" sözləri ilə əvəz edilsin;

2.1.2. ikinci abzasda "37" rəqəmləri "36,5" rəqəmləri ilə əvəz edilsin;

2.1.3. üçüncü abzasda "45" rəqəmləri "48" rəqəmləri ilə əvəz edilsin;

2.2. 15-ci maddənin birinci hissəsinin səkkizinci abzasında "5" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin və həmin abzasa "etmiş" sözündən sonra "kadr" sözü əlavə edilsin;

2.3. 150-ci maddənin birinci hissəsində "korpus (diviziya) və ona bərabər olan birbaşa rəislərin" sözləri "müvafiq icra hakimiyyəti orqanının rəsmiləşdirilmiş" sözləri ilə, "müəssisələrinin qiyabi şöbəsində" sözləri "müəssisələrində" sözü ilə əvəz edilsin;

2.4. 156-cı maddə üzrə:

2.4.1. birinci hissənin "j" bəndinə "etmiş" sözündən sonra "kadr" sözü əlavə edilsin;

2.4.2. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"**Qeyd**: Zabitlərin həqiqi hərbi xidmət dövründə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin (xarici ölkələrin analoji ali təhsil müəssisələrinin) magistratura (rezidentura), doktorantura (adyunktura) səviyyələri üzrə əyani təhsilalma müddəti, eləcə də ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsil müddəti (bir ildən çox olduqda) bu Əsasnamənin 15-ci maddəsinin birinci hissəsinin səkkizinci abzasında və bu maddənin birinci hissəsinin "j" bəndində nəzərdə tutulmuş müddətlərə daxil edilmir.";

2.5. 172-ci maddənin üçüncü hissəsi ləğv edilsin;

2.6. Əsasnaməyə 3 saylı əlavə - "Hərbi qulluqçuların son yaş həddindən artıq həqiqi hərbi xidmətdə saxlanması üçün siyahıların tərtib edilməsi Qaydaları" üzrə:

2.6.1. birinci hissədə "ikinci 5" sözləri "daha 2" sözləri ilə əvəz edilsin;

2.6.2. üçüncü hissədə üçüncü halda "5" rəqəmi "2" rəqəmi ilə, "ikinci 5" sözləri "daha 2" sözləri ilə əvəz edilsin;

2.6.3. altıncı hissədən "5 illik" sözləri çıxarılsın.

**Maddə 3**. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382, № 11, maddə 1691, № 12, maddə 1891; 2020, № 7, maddə 829, № 12 (I kitab), maddə 1451; 2021, № 7, maddə 709, № 8, maddələr 893, 899, № 12, maddə 1332; 2022, № 6, maddə 583, № 8, maddə 829, № 12, maddələr 1369, 1387; 2023, № 1, maddə 44, № 2, maddələr 195, 212, 217; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 9.5-ci maddə üzrə:

3.1.1. 9.5.1-ci maddədə "20" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin;

3.1.2. 9.5.2-ci maddədə "25" rəqəmləri "30" rəqəmləri ilə və "12 il 6 ayını" sözləri "15 ilini" sözləri ilə əvəz edilsin;

3.1.3. 9.5.3-cü maddədə "45" rəqəmləri "48" rəqəmləri ilə, "25" rəqəmləri "30" rəqəmləri ilə və "12 il 6 ayını" sözləri "15 ilini" sözləri ilə əvəz edilsin;

3.2. 20-ci maddə üzrə:

3.2.1. 20.14.1-ci maddədə hər üç halda "20" rəqəmləri "25" rəqəmləri ilə, "50" rəqəmləri "65" rəqəmləri ilə əvəz edilsin və həmin maddədən "yaşına və ya xəstəliyinə görə hərbi xidmətdən buraxılanlara isə - 55 faizi," sözləri çıxarılsın;

3.2.2. 20.14.2-ci maddədə hər iki halda "25" rəqəmləri "30" rəqəmləri ilə, "50" rəqəmləri "65" rəqəmləri ilə, "12 il 6 ayını" sözləri "15 ilini" sözləri ilə və "hərbi xidmətin (hərbi xidmətin güzəştli sayılan hissəsi nəzərə alınmaqla)" sözləri "ümumi iş stajının" sözləri ilə əvəz edilsin;

3.2.3. 20.14.3-cü maddədə "45" rəqəmləri "48" rəqəmləri ilə, hər iki halda "25" rəqəmləri "30" rəqəmləri ilə, "12 il 6 ayını" sözləri "15 ilini" sözləri ilə və "hərbi xidmətin (hərbi xidmətin güzəştli sayılan hissəsi nəzərə alınmaqla)" sözləri "ümumi iş stajının" sözləri ilə əvəz edilsin;

3.2.4. 20.17-ci maddə aşağıdakı redaksiyada verilsin:

"20.17. Bu Qanunun 20.1.13-cü maddəsində nəzərdə tutulmuş şəxslərin əmək pensiyasına əlavələr pensiya təyinatı tarixinədək təminat xərcliyindəki sonrakı artımlar da nəzərə alınmaqla ailə başçısının təminat xərcliyinin məbləğinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanuna uyğun olaraq təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər təyin edilir.".

**Maddə 4**. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205; 2019, № 2, maddə 187, № 4, maddə 579, № 5, maddə 797, № 6, maddə 986; 2020, № 7, maddə 831, № 11, maddə 1338; 2021, № 3, maddə 210; 2022, № 5, maddələr 433, 440; 2023, № 2, maddə 190, № 7, maddələr 897, 899) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 39.1.2-ci maddədə "45" rəqəmləri "48" rəqəmləri ilə əvəz edilsin;

4.2. 41-ci maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"**Qeyd**: Zabitlərin həqiqi hərbi xidmət dövründə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin (xarici ölkələrin analoji ali təhsil müəssisələrinin) magistratura (rezidentura), doktorantura (adyunktura) səviyyələri üzrə əyani təhsilalma müddəti, eləcə də ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsil müddəti (bir ildən çox olduqda) bu Qanunun 41.0.9-cu maddəsində nəzərdə tutulmuş müddətə daxil edilmir.";

4.3. 44.2-ci maddə ləğv edilsin.

**Maddə 5. Keçid müddəalar**

5.1. Bu Qanun qüvvəyə mindiyi tarixədək "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 9.5.1-ci maddəsinə əsasən tələb olunan 20 təqvim ili hərbi xidmət müddətinin tamamlanmasına ən çoxu 3 təqvim ili qalmış hərbi qulluqçulara "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20.17-ci maddəsi istisna olmaqla) tətbiq edilir.

5.2. Bu Qanun qüvvəyə mindiyi tarixədək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçular 25 təqvim ili hərbi xidmət müddətini tamamlayanadək hərbi xidmətdən buraxıldıqda, onlara "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20.17-ci maddəsi istisna olmaqla) tətbiq edilir.

5.3. Bu Qanun qüvvəyə mindiyi tarixədək təyin edilmiş əmək pensiyaları bu Qanuna əsasən yenidən hesablanmır.

**Maddə 6**. Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 dekabr 2023-cü il

### "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə* ***qərara alıram:***

1. Müəyyən edilsin ki:

1.1. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hərbi qulluqçunun xidmət yerinə müvafiq olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirirlər;

1.2. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin 150-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hərbi qulluqçunun xidmət yerinə müvafiq olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176 (Cild I) 2-ci hissəsinin iyirminci abzasına "Qanunun" sözündən sonra "150-ci maddəsinin birinci hissəsində və" sözləri əlavə edilsin.

4. Bu Fərman 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 fevral 2024-cü il

# Türkiyədə təhsil alan kursantlarla görüş keçirilib









Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Türkiyə Respublikasına səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Ankara şəhərində yerləşən parkdakı abidəsini və Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib. Ulu Öndərlərin xatirəsi dərin hörmət və ehtiramla anılıb.



Sonra Şəxsi Heyət Baş İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Elçin Xəlilov rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Türkiyənin Milli Müdafiə Nazirliyi, müxtəlif qoşun növü komandanlıqları, eləcə də bir neçə hərbi təhsil müəssisəsində olub və bir sıra görüşlər keçirib. Keçirilən görüşlərdə Azərbaycan ilə Türkiyə arasında hərbi təhsil və kadr hazırlığı sahəsində əməkdaşlığın inkişaf perspektivlərindən danışılıb, bu istiqamətdə görüləcək işlər, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Daha sonra qardaş ölkədə təhsil alan kursantlarla görüş keçirilib. Azərbaycanlı nümayəndələr kursantların tədris prosesi ilə tanış olublar, onları maraqlandıran suallar cavablandırılıb. Kursantlarla bir yerdə nahar edilib.

Səfər çərçivəsində azərbaycanlı nümayəndə heyəti, həmçinin qardaş ölkənin "HAVELSAN" şirkətini ziyarət edib. Burada qonaqlara müxtəlif təyinatlı silah-texnika və hərbi təyinatlı vasitələr nümayiş etdirilib.



# İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar ilə təlim-metodiki toplantı keçirilib

2024-cü ilin hazırlıq planına uyğun olaraq, "N" hərbi hissəsində ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar ilə təlim-metodiki toplantı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.



Toplantıda ideoloji iş və mənəvi-psixoloji təminatın yüksəldilməsi istiqamətində ötən il ərzində görülən işlərə, əldə olunan nailiyyətlərə və nöqsanların aradan qaldırılmasına dair məruzələr dinlənilib, cari ildə bu istiqamətdə görüləcək işlər, perspektiv planlar müzakirə olunub.

Həmçinin Azərbaycan Ordusunda hərbi vətənpərvərlik tərbiyəsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında fərdi tərbiyə işinin aparılması və qarşılıqlı münasibətlərin düzgün təşkil edilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Toplantıda zabitlər ideoloji iş və mənəvi-psixoloji təminatın yüksəldilməsi istiqamətində görülən işlərə dair məruzələrlə çıxış ediblər.

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Fevralın 16-sı saat 12:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Daşkəsən rayonunun Təzəkənd yaşayış məntəqəsi istiqamətindəki mövqelərini iriçaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

# Rusiya Federasiyasındakı hərbi attaşelik aparatının nümayəndələri Moskvada keçirilən iclasda iştirak ediblər



Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı hərbi attaşelik aparatının nümayəndələri Moskva şəhərində keçirilən Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı dövlətlərinin hərbi təhsilin idarəetmə orqanları rəhbərlərinin iclasında iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, MDB Müdafiə Nazirləri Şurasının katibi general-mayor Yuri Daşkinin sədrliyi ilə keçirilən iclasda 2023-cü il ərzində həyata keçirilmiş fəaliyyətlər təhlil olunub, o cümlədən 2024-cü il üçün nəzərdə tutulmuş tədbirlər müzakirə edilib. Həmçinin müxtəlif mövzularda aidiyyəti şəxslərin çıxışları dinlənilib, müasir çağırışlar fonunda MDB məkanında hərbi təhsil sistemlərinin qarşılıqlı inteqrasiya imkanları barədə ətraflı fikir mübadiləsi aparılıb.



Sonda iclasın gedişatı və aparılmış müzakirələrə dair protokol imzalanıb.

# Azərbaycan Ordusunda komanda-qərargah səfərbərlik təlimi keçirilir



2024-cü ilin hazırlıq planına əsasən "N" hərbi hissəsində komanda-qərargah səfərbərlik təlimi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim müddətində qəbul məntəqələrinin açılması, şəxsi heyətin qəbulu prosesinin öyrənilməsi, bölmələrin səfərbərliklə komplektləşdirilməsi və döyüş uzlaşmasının təşkili, əməliyyat təyinatı rayonuna yerdəyişmənin həyata keçirilməsi və ərazidə yerləşmə üzrə hesabların dəqiqləşdirilməsi, eləcə də əməliyyat təyinatı rayonunun tutulması və hücum əməliyyatının təşkili mövzularında fəaliyyətlər icra edilib və yerinə yetirilən fəaliyyətlərlə bağlı məruzələr dinlənilib.



Təlimin məqsədi səfərbərlik resurslarının dəqiqləşdirilməsi və icra olunan səfərbərlik tədbirlərinin müasir standartlara uyğunlaşdırılmasıdır.

*Ordenli igidlərimiz*

## Laçın həmişə ruhumda olub

Vətəni düşməndən qorumaq hər bir vətəndaşın müqəddəs borcudur. Xalqımızın vətənpərvər oğul və qızları zaman-zaman ölkəmizə, onun ərazi bütövlüyünə göz dikmiş düşmənlərə qarşı silaha sarılaraq döyüşüblər. Ötən əsrin 80-ci illərin sonunda bədnam qonşularımız ermənilər doğma Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağı Ermənistanın tərkibinə birləşdirmək xəyalına düşdülər. Daşnaklar bütün gücü ilə həm sovet rəhbərliyindən, həm də xarici havadarlardan dəstək alırdılar. Azərbaycan xalqı isə öz doğma ərazilərini düşməndən tək-tənha müdafiə etmək məcburiyyətində idi. Ermənilər hər ötən gün öz bəd niyyətlərini həyata keçirmək üçün daha da azğınlaşırdılar. Hətta Azərbaycana qarşı elan edilməmiş müharibəyə başlamaqdan da çəkinmədilər.

Birinci Qarabağ müharibəsi Azərbaycanın yenicə müstəqillik qazandığı illərə təsadüf edir. O zaman nə peşəkar ordumuz vardı, nə də formalaşmış dövlət idarəçiliyi mövcud idi. Xalq vətənpərvər oğul və qızlardan ibarət könüllü özünümüdafiə dəstələri yaratmışdı. Onlar Qarabağda və Ermənistanla dövlət sərhəddində müdafiədə dayanmışdılar. Xalqımızın qətiyyətli iradəsini görən düşmən daha da amansız, qəddar üsullara əl atmaqla istəklərinə nail olmağa çalışırdı. Ölkəmizdəki siyasi gərginlikdən, peşəkar ordunun olmamasından istifadə edən ermənilər havadarların dəstəyi ilə Azərbaycanın ərazisinin 20 faizini işğal edə bildilər. Bu işğal 30 ilə yaxın davam etdi. Azərbaycan xalqı və dövləti bu illər ərzində nə torpaq itkisi ilə, nə də ərazi bütövlüyünün pozulması ilə qəti barışmadı. Xalqımızın vətənpərvər, mərd oğullarının sayəsində gec də olsa torpaqlar azad edildi. Bu cür mərd, qətiyyətli döyüşçülərdən biri də mayor Nail Təmraz oğlu Daşdəmirov olmuşdur.

Nail Daşdəmirov 1987-ci ildə Zaqatala rayonunun Lahıc kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi şəhidi Qoca Qocayev adına Lahıc kənd tam orta məktəbini oxuyub. Nail təhsil aldığı məktəbin adını daşıyan şəhidin ölməzliyini, şəhidliyin müqəddəsliyini də elə onda duymuşdu. Nail hər səhər məktəbin girişindəki lövhədə Qoca Qocayevin adını oxuyardı. Kəndin fəxri şəhid Qoca Qocayevin döyüş yolunu öyrənəndən sonra böyüyəndə mütləq hərbçi olmaq qərarına gəlib. Döyüşçü olmaq, ermənilərin işğal etdikləri torpaqlarımızdan çıxarmaq, lazım gələrsə döyüşəcəyini də düşünüb bu qərarı vermişdi. Nail orta məktəbdə yaxşı oxuyur, ictimai işlərdə də fəallığı ilə seçilirdi. Valideynləri onun tamam fərqli bir peşənin davamçısı olacağını düşünmüşdülər. 2004-cü ildə orta məktəbi bitirəndə neçə illər qəlbində saxladığı, lakin açıb deyə bilmədiyi sirrini ilk dəfə atasına açır. O da son anda öz xeyir-duasını vermişdi.

Nail Daşdəmirov 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (İndiki Heydər Əliyev adına Hərbi İnstitut) yüksək balla qəbul olur. Motoatıcı ixtisası üzrə hərbi təhsil alan Nail oxuduğu illərdə bütün fənləri yüksək səviyyədə mənimsəyir. Praktiki çalışmalara da dərindən yiyələnir. Gələcəkdə tabeliyində olan hərbçiləri döyüşə hazırlamaq üçün mükəmməl bilik və bacarıqlarının olmasını gərəkli bilir. Bu səbəbdən də Nail çalışırdı ki, daha yaxşı oxusun. Beləliklə, Nail Ali Hərbi Məktəbi 2009-cu ildə fərqlənmə ilə bitirir. Məktəbin yaş kötüyünə emblem vurur.

Təlim və Tədris Mərkəzində bir il təkmilləşdirmə kursu keçəndən sonra gənc leytenant Nail Daşdəmirov cəbhə bölgəsinə göndərilib. Gənc zabit burada da xidməti vəzifəsinin öhdəsindən layiqincə gələ bilib. Çox keçmir komandanlıq yüksək idarəçilik bacarıqlarına görə onun daha yuxarı vəzifəyə təyin olunması üçün vəsatət qaldırır.

2014-cü ilin yayında düşmən mövqelərimizə doğru hücum edəndə baş leytenant Nail Daşdəmirovun komandiri olduğu bölmə sayıqlığını bir an belə itirməmişdi. Hücum edən düşmənin qarşısını almış və onu çoxlu itki verməklə geri çəkilməyə məcbur etmişdir. Onun müdafiə mövqeyində göstərdiyi igidlik ordu rəhbərliyi tərəfindən dəyərləndirilərək növbədənkənar “kapitan” hərbi rütbəsinə təqdim edilmişdir.

Əməyi layiqincə qiymətləndirilən Nail bundan sonra hərbi xidmətə daha ciddi, daha böyük həvəs göstərib. Tabeliyində olan əsgərlərin də düşmənlə təmas xəttində daim ayıq-sayıq olması üçün səylərini artırıb. Əsgərlərlə söhbətində, onlara hər an düşmənin hücum edəcəyini və bu hücumun qarşısını yalnız sayıqlığımız və peşəkarlıq sayəsində almaq mümkün olduğunu deyir. Əsgərlər komandirin dediklərini özlərinə qanun bilib mütləq şəkildə əməl edirlər.



Hərb tariximizə "Aprel döyüşləri" kimi qızıl hərflərlə yazılan 2016-cı ili yaxşı xatırlayırıq. Azərbaycan Ordusunun uzun müddətli atəşkəs dövründə ilk genişmiqyaslı əks-hücum əməliyyatı onda olmuşdu. O zaman əsgərlərimiz düşmənin qarşısını almış və onu böyük itkilərə düçar etmişdir. "Lələtəpə" istiqamətində düşməni məğlub edən bölmələrdən birinə komandirlik edən kapitan Nail Daşdəmirov aldığı döyüş tapşırığını uğurla yerinə yetirmişdir. O, tabeliyində olan əsgərlərlə "Lələtəpə" yüksəkliyinə ilk daxil olan Vətən oğullarımızdan olmuşdu. Aprel döyüşlərində fərqləndiyinə görə kapitan Nail Daşdəmirov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "İgidliyə görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunub.

Vətən torpaqlarımızın tam azad edilməsini arzu edən və hər an bunun üçün varlığı ilə çalışan xalqımızın igid oğullarından biri də Nail olmuşdu. O, ruhdan düşməyib komandiri olduğu taboru döyüşə hazırlayırdı. Xidmətdə və hərbi əməliyyatlarda özünü doğruldan bu zabitə komandanlıq etimad göstərib qısa müddətdə yuxarı vəzifələrə təyin etmişdir. Bu dəfə Naili daha böyük və ciddi döyüş tapşırığının icrasını gözləyirdi. 2020-ci ilin iyulun əvvəlində Ermənistanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmən yenidən təxribata əl atdı. Cəbhə xəttini yarıb yeni ərazilərimizi işğal etmək iddiasına düşdü. Döyüşçülərimizin sayıqlığı nəticəsində yenə düşmən həmləsinin qarşısı qətiyyətlə alındı. Buna baxmayaraq cəbhədə gərginlik səngimək bilmirdi.

2020-ci il sentyabrın 27-də düşmən yenə təxribat törətdi. Bu zaman Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqa müraciət edərək ölkədə qismən səfərbərlik elan etdi. Cəbhə boyu gərgin döyüşlər başladı. Tərtər-Goranboy istiqamətində Nail komandiri olduğu taborla ona verilən döyüş tapşırığını uğurla yerinə yetirdi. Talış və Suqovuşan kəndlərinin azad edilməsi zamanı düşməni ağır itkilərə düçar edərək geri çəkilməyə məcbur etdi. Nail sentyabrın 30-da yaralansa da, bu barədə o, heç kimə bildirmir. Yarası yüngül olduğu üçün döyüşə davam edib. Oktyabrın 7-də isə ağır yaralanıb. Onu hospitala təxliyə ediblər. Oktyabrın 30-da müalicəni yarımçıq qoyub yenidən cəbhəyə qayıdıb və komandiri olduğu taboru döyüşdə idarə edib. Mayor Nail Daşdəmirovun xidmətləri, vətənpərvərliyi komandanlıq tərəfindən bu dəfə də yüksək qiymətləndirilib. 20 dekabr 2020-ci ildə mayor Nail Daşdəmirov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Qarabağ" ordeni ilə təltif edilib.

Mayor Nail Daşdəmirov hazırda ruhundan uzaq olmayan Laçın rayonunda, relyefin çətin olduğu dağlıq ərazidə xidmətini uğurla davam etdirir. Onun ən böyük arzusu erməni işğalı altında olan torpaqlarımızı azad etmək olmuşdu. İndi arzusuna çatan Nail azad edilməsi uğrunda vuruşduğu torpaqlarımızın müdafiəsində mətin dayanıb.

Mayor Nail Daşdəmirova bu çətin və şərəfli hərbi xidmətdə uğurlar arzulayırıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Türkiyə XİN: AŞPA-nın Azərbaycanla bağlı qərarı təmsilçilik hüququna ziddir

*Türkiyənin Xarici İşlər Nazirliyi Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycan nümayəndə heyətinin etimadnaməsini təsdiqləməməsi ilə bəyanat yayıb.*

AZƏRTAC xəbər verir ki, bəyanatda Türkiyə XİN-in AŞPA tərəfindən Azərbaycan nümayəndə heyətinin mandatının təsdiq edilməməsi barədə qərarın təəssüflə qarşılandığı bildirilib.

Qeyd edilib ki, bu qərar demokratik dəyərlərə uyğun gəlmir və təmsilçilik hüququna ziddir. Aydındır ki, əməkdaşlıq və dialoq kanallarının bağlanması mənasını verən bu addım regionda sülhün və sabitliyin təmin olunmasına xidmət etməyəcək.

Türkiyə AŞPA-nı bu səhvi tez bir zamanda düzəltməyə və Cənubi Qafqazda sülh səylərinə diqqət yetirməyə çağırıb.

## Xankəndidə xeyli sayda silah və sursat aşkarlanıb



Fevralın 15-də Xankəndi şəhəri ərazisində xeyli sayda silah və sursat aşkarlanıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, polis əməkdaşlarının ötən gün keçirdikləri tədbirlərlə Xankəndidə 2 ədəd pulemyot, 6 ədəd müxtəlif markalı avtomat silahı, 1 tapança, 3 tüfəng, 8 ədəd qumbara, 44 ədəd patron darağı, 3114 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb.

# "Yaddaşlara köçən qəhrəman!" adlı anım tədbiri keçirildi

*Anım tədbirində Müdafiə Nazirliyinin hərbi qulluqçuları, qəhrəmanın doğmaları, döyüş yoldaşları, bir qrup Birinci və İkinci Qarabağ müharibəsinin iştirakçısı, şəhid ailələri və başqa qonaqlar iştirak etdilər.*

***Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəylinin anadan olmasının 60 illiyinə həsr olunmuş "Yaddaşlara köçən qəhrəman!" adlı anım tədbiri keçirildi. Qeyd edək ki, Milli Qəhrəman Azərbaycanın istiqlal şairi Xəlil Rza Ulutürkün yeganə övladı olub.***



Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra muzeyin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə Milli Qəhrəman Təbriz Xəlilbəylinin şərəfli həyat və döyüş yolundan geniş məruzə ilə çıxış edərək bildirdi ki, Təbriz Xəlilbəyli 1991-ci ilin sonunda könüllü olaraq Qarabağa - Ağdam cəbhəsinə yollanıb. "O, döyüşlərdə qəhrəmanlıq göstərərək, yaralı hərbi qulluqçuları atəş altından çıxarıb, düşmənin xeyli canlı qüvvəsini məhv edib, cəsurluğu, qorxmazlığı ilə şöhrət qazanıb. Ağdamın Xocalının Pirlər kəndi, Xocalının Naxçıvanik (indiki Naxçıvanlı) kəndləri uğrunda gedən döyüşlərdə xüsusi ilə fərqlənib.Təbriz 31 yanvar 1992-ci ildə Xocalı rayonunun Xanabad kəndi istiqamətində gedən ağır döyüşlərdə şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Təbriz Xəlil Rza oğlu Xəlilbəyli ölümündən sonra yüksək ada - Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Cəsur Vətən oğlu Birinci Şəhidlər xiyabanında dəfn edilib. Bakı şəhərindəki küçələrdən biri Təbrizin adını daşıyır. Yaşadığı evin qarşısına isə xatirə lövhəsi vurulub. Təbriz yaşasaydı, bu gün 60 yaşı olardı, ancaq şəhidlik məqamına ucalanda qəhrəmanın 28 yaşı vardı".

Muzey rəisi çıxışına davam edərək vurğuladı ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın erməni faşistləri tərəfindən işğal edilmiş ərazilərimiz azadlığına qovuşdu. Ordumuzun parlaq qələbəsi nəticəsində Vətənimizin ərazi bütövlüyü təmin olundu. Tarixi Zəfərlə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının qanı yerdə qalmadı, düşməndən onların qisası alındı.





Qəhrəmanın həyat yoldaşı Sevinc Ulutürk, komandiri olmuş Xudu Xudiyev, döyüş yoldaşları Ədalət Məhərrəmov, Zahid Qarayev Təbriz Xəlilbəyli haqqında xoş xatirələrini bölüşdülər. Onun Birinci Qarabağ müharibəsi zamanı göstərdiyi igidlik və fədakarlıq nümunələrindən danışdılar.

Çıxış edən şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə etdilər.

Daha sonra Milli Kino Mərkəzinin rəhbəri Kəmalə Musazadənin ssenari müəllifliyi və rejissorluğu ilə araya-ərsəyə gətirilən Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəyliyə həsr edilmiş "Ulu Türkün Təbrizi" adlı sənədli filmin nümayişi oldu.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən mahnılar ifa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Tarixi zəfər, tarixi oğullar

*Kapitan Yusif Nəcəfov 1992-ci il fevralın 17-də Neftçala rayonunda dünyaya göz açıb. İlk öncə valideynlərindən, daha sonra isə Neftçala rayonunun Xalqarabucaq kənd orta məktəbində təhsil aldığı müddətdə müəllimlərindən xain erməni əsgərlərinin xalqımızın başına açdığı əzab-əziyyətləri, işgəncələri və tarixi torpaqlarımızı işğal etdiklərini öyrənib.*

Dərs saatları bitdikdən sonra kitabxanalara gedərək, Birinci Qarabağ döyüşləri haqqında biliklərini zənginləşdirirdi. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin lentə aldığı videogörüntüləri izlədikcə düşmənə olan nifrəti, qəzəbi gündən-günə artırdı. Məhz bu səbəbdən də o, hərbçi olmaq və erməni işğalçılarından qisas alanların sıralarında olmaq qərarına gəldi. Orta təhsilini başa vurduqdan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldu. Orada üç il təhsil aldıqdan sonra hərbi təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (İndiki Heydər Əliyev adına Hərbi İnstitut) davam etdirdi. Təhsil aldığı müddətdə hərbin sirlərinə dərindən yiyələnən Yusif artıq peşəkar hərbçi kimi formalaşdı. Qarşıya qoyulacaq bütün tapşırıqların öhdəsindən asanlıqla gələ biləcək güc, qüvvət və savada malik idi. Beləliklə, gənc zabitimiz "leytenant" hərbi rütbəsinə layiq olduğu zaman ilk arzusuna çatmış oldu. İşğalçılardan qisas almaq arzusu isə onu illər sonra gözləyirdi.



Xidmətə başladığı andan etibarən peşəkar müəllimlərdən öyrəndiklərini tabeçiliyində xidmət edənlərə öyrədirdi. O, şəxsi heyətə həm komandir, həm dost, həm də qardaş oldu. Bunun nəticəsidir ki, Yusif qısa müddət ərzində komandir və şəxsi heyətin hörmət və rəğbətini qazandı. Həmçinin şəxsi heyəti peşəkar döyüşçü kimi formalaşdırırdı. İnanırdı ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə döyüşlər başlayacaq və o da qisas alanlardan olacaq. Çox vaxt keçmədən bu belə də oldu. Xain düşmənin bütün cəbhə boyu həyata keçirdiyi növbəti təxribatlarının qarşısını almaq məqsədilə rəşadətli ordumuz əks-hücum əməliyyatlarına başladı. Hər gün irəliləyən məğrur igidlərimiz xain düşmənə göz açmağa imkan vermirdilər. İllərdir torpaq həsrətilə yaşayan xalqımızın qisasını aldılar. Onların igidliyi və şücaəti nəticəsində işğalçılar böyük itkilər verdilər. Dəqiq endirilən zərbələr və irəliləyən bölmələrimizin peşəkarlığı sayəsində tarixi torpaqlarımız ard-arda mənfur düşməndən azad edilirdi. Bunun nəticəsidir ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə başlayan Vətən müharibəsi cəmi 44 gün davam etdi.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə başlayan və şanlı zəfərimizlə nəticələnən Vətən müharibəsində kapitan Y.Nəcəfov da iştirak edib. Silahdaşları kimi düşmənə göz açmağa imkan verməyərək, şəhidlərimizin qisasını alıb. Uzun müddət bu arzu ilə yaşayan Yusif dəqiq hesablamalar apararaq, düşmən mövqelərini, texnikalarının, dayaq məntəqələrinin, hərbi təyinatlı obyektlərinin koordinatlarını çıxararaq, sərrast atəşlə məhv edilməsində iştirak edib. Beləliklə, torpaqlarımızın işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərən Nəcəfov Yusif Məhərrəm oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

- Hər bir şəxs öz Vətənini canı bahasına olsa belə qorumalıdır. Bu onun ilk öncə Vətən qarşısında olan övladlıq, daha sonra isə mənəvi borcudur. Bu şərəfli vəzifəni ləyaqətlə yerinə yetirmək, torpaqlarımıza göz dikən mənfur düşməni məhv etmək, şəhidlərimizin qisasını almaq üçün məhz hərbçi olmaq qərarına gəldim. Qərarımı valideynlərimə açıqladığım zaman mənimlə qürur duyduqlarını deyərək, işimdə uğurlar arzuladılar. Mən də seçdiyim peşənin bütün incəliklərini dərindən öyrənməyi və valideynlərimin mənə olan etimadını doğrultmağı özümə borc bildim. Hərbi liseydə və ali məktəbdə təhsil aldığım müddətdə mühazirələri diqqətlə dinləyir, seminarlarda verilən sualları cavablandırır və keçirilən təlimlərdə fəal iştirak edirdim. Ümid edirəm ki, peşəkar müəllimlərim sayəsində təcrübəli zabit kimi formalaşmışam. Hər zaman olduğu kimi, bundan sonra da xidmətimdə məsuliyyətli olacaq, ana Vətənimizin bütövlüyü uğrunda son damla qanıma qədər mübarizə aparacağam.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## **Mövzu:** 31 Mart - Azərbaycanlıların Soyqırımı Günüdür

**Suallar:**

**1. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri.**

**2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı və bu Fərmanın tarixi əhəmiyyəti.**

### Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri

XIX əsrin əvvəllərində Çar Rusiyasının cənub dənizlərinə doğru həyata keçirdiyi müstəmləkəçilik siyasəti nəticəsində Qacarlar dövləti ilə Rusiya imperiyası arasında baş vermiş müharibələr nəticəsində 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanması Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarının bölünməsinin əsasını qoymuşdur. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilir. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, Qacarlar dövlətindən 40 min nəfər erməni, Osmanlı imperiyası ilə Rusiya imperiyası arasında baş vermiş müharibə nəticəsində bağlanılmış Ədirnə müqaviləsinə əsasən isə Osmanlı imperiyasından 86 min nəfər erməni Cənubi Qafqaza köçürülərək, əsasən azərbaycanlıların yaşadığı İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində yerləşdirilir. Çar Rusiyasının bu əraziləri işğalında xüsusi rol oynamış ermənilərin köməyi əvəzinə, gəlmə ermənilər bu xanlıqların ərazilərində azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, ermənilər üçün Naxçıvan və İrəvan xanlıqlarının ərazisində rus çarının fərmanı ilə "erməni vilayəti" adı ilə inzibati ərazi bölgüsü yaradılmışdır. Cənubi Qafqaza köçürülmüş və getdikcə öz yerlərini möhkəmləndirən ermənilər "Böyük Ermənistan" yaradılması ideyasının və onun təbliği siyasətinin əsasını qoyurlar.

Ermənilərin öz xəyallarında uydurduqları bu dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəldilmiş geniş miqyaslı proqramlar hazırlanır və reallaşdırılır. Bu məsələlər xüsusilə XIX əsrin axırlarında yaradılmış "Armenakan", "Hnçaq", "Daşnaksütyun" və digər bu kimi şovinist erməni millətçi partiyaların proqramlarında geniş yer alır. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni şovinist millətçiləri 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı təcavüzlər həyata keçirirlər. Ermənilərin 1905-ci ilin fevralından Bakıdan başladıqları vəhşiliklər Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlılar yaşayan şəhər və kəndləri əhatə edir. Bu hadisələr nəticəsində yüzlərlə yaşayış məntəqələri dağıdılaraq yerlə-yeksan edilir, minlərlə azərbaycanlı qətlə yetirilir.

Ermənilərə erməni dövlətini yaratmaq üçün öz planlarının reallaşdırılmasında Birinci Dünya müharibəsi və Çar Rusiyasında baş verən inqilabi hadisələrin xüsusilə böyük rolu oldu. Müharibə şəraitində Rusiya imperiyasında baş vermiş fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən daşnak xislətli ermənilər öz məqsədlərini bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin martından etibarən əks-inqilabi ünsürlərlə mübarizə şüarı altında S.Şaumyanın rəhbərlik etdiyi və əksəriyyəti ermənilərdən ibarət olan Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını yerli əhali olan azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planı həyata keçirməyə başlayırlar. 1918-ci il martın 19, 20, 21, 30, 31-də və aprelin 1-də ermənilərin Bakıda törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşında əbədi olaraq həkk olunmuşdur. Həmin günlər 30 minə yaxın dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq abidələri, məktəblər, xəstəxanalar, qəzet-jurnal mətbəələri, məscidlər və s. dağıdılmış, yandırılmış, Bakının azərbaycanlılar yaşayan hissəsi xarabalığa çevirilmişdi.

Azərbaycanlıların soyqırımı Bakıdan sonra Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvan quberniyasının azərbaycanlılar yaşayan ərazilərində və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdi. Bakıda olduğu kimi, bu ərazilərdə də dinc əhali kütləvi surətdə soyqırımına məruz qalmış, şəhərlər və kəndlər yandırılmış, dağıdılmış, azərbaycanlılara məxsus milli mədəniyyət abidələri məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. 1919-cu və 1920-ci illərdə martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Ümummilli Matəm Günü kimi qeyd edilmişdir. Lakin Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin azərbaycanlılara qarşı soyqırımını araşdırmaq məqsədilə yaradılan komissiya bolşeviklərin ölkəmizi işğal etməsi səbəbindən öz işini başa çatdıra bilmədi.

Sovet Rusiyasının onlara qarşı isti münasibətindən və Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzur qəzasını və Azərbaycanın bir sıra mübahisəsiz torpaqlarını öz ərazilərinə qatmağa nail oldular. Ciddi-cəhdlə çalışsalar da, Qarabağı ələ keçirə bilməyən ermənilər 1923-cü ilin iyulunda ona muxtar vilayət statusu verdirməyə nail ola bildilər. Məqsəd isə gələcəkdə onu Ermənistan SSR-ə birləşdirmək idi.

Xaricdən gələn ermənilərin yerləşdirilməsi, həm də Kür-Araz ovalığının pambıq əkən rayonlarda işçi qüvvəsinin çatışmazlığı bəhanəsi ilə azərbaycanlıların əzəli torpaqlarından deportasiyasının növbəti mərhələsi həyata keçirilir. Belə ki, SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı ilə 1948-1953-cü illərdə 150 min azərbaycanlı ilk baxışda görünməyən soyqırımına - deportasiyaya məruz qalmış, öz tarixi vətənindən zorla köçürülərək Azərbaycan Respublikasının ərazisində yerləşdirilmişdir.

XX əsrin 50-ci illərindən başlayaraq onsuz da saxtalaşdırılmış erməni tarixini daha da saxtalaşdıraraq gənc ermənilərin millətçilik və şovinizm ruhunda böyüməsinə zəmin yaratmaq Ermənistan SSR-də dövlət siyasəti səviyyəsinə qaldırılır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar uyduran ermənilər siyasi və hərbi təcavüzlər üçün ideoloji zəmin hazırlayırdılar.

1988-ci ildən ortaya atılan Ermənistan və Azərbaycan arasında 10 noyabr 2020-ci ilədək mövcud olmuş münaqişənin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına Azərbaycanda düzgün siyasi qiymət verilmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu. Qarabağdakı azərbaycanlı kəndlərindən də azərbaycanlılar kütləvi surətdə təqib edilərək zorla qovuldu. 1992-ci il fevralın ortalarında ermənilər Xocavənd rayonunun Qaradağlı kəndinin 54 sakinini vəhşicəsinə öldürüb silos quyularına atdılar. 1992-ci il fevralın 25-də isə erməni hərbi birləşmələri ilə sovet ordusundan qalma və şəxsi heyəti əsasən ermənilərdən ibarət olan 366-cı alay Xocalıya hücum edərək şəhər əhalisinə vəhşicəsinə divan tutdular, daha bir dəhşətli soyqırımını törətdilər. 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 1275 nəfər əsir alındı, 8 ailə bütövlüklə məhv edildi. 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı, dəriləri soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı süngü ilə deşildi.

Azərbaycanın XIX-XX-ci əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edib. Xalqımıza qarşı törədilmiş bütün soyqırımı faciələrinə siyasi qiymət vermək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı imzaladı. Həmin fərmanla 31 mart azərbaycanlıların soyqırımı günü kimi tarixə yazıldı.

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı və bu fərmanın tarixi əhəmiyyəti

Tarixi şərait səbəbindən ötən iki əsr ərzində baş vermiş hadisələrə, xalqımızın faciələrinə obyektiv qiymət vermək mümkün olmamışdır. Yalnız müstəqillik dövründə ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı cinayətlərinə əsil hüquqi-siyasi qiymət verildi. 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Ulu Öndər Heydər Əliyev bu fərmanla 1918-ci ilin mart hadisələrini geniş şərh etdi, bolşevik cildinə girmiş erməni daşnaklarının Azərbaycan xalqının başına gətirdiyi müsibətləri dünyaya bəyan edərək qanlı əməllərə düzgün siyasi qiymət verdi və onu Azərbaycan xalqına qarşı törədilən ən böyük faciə adlandırdı. Erməni məkrini tarixi faktların dili ilə ifşa edən bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından bir növ proqram sənədidir. Fərmanda deyilir: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. 1918-ci ilin martından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə adı altında Bakı Kommunası Bakı quberniyasını azərbaycanlılardan təmizləmək niyyəti güdən mənfur plan həyata keçirməyə başladı. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük hissəsini xarabazarlığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər dağıdılmış, milli mədəniyyət abidələri məhv edilmişdir".

Azərbaycan tarixində ilk dəfə olaraq Ulu Öndər Heydər Əliyev erməni məkrini tarixi faktların dili ilə ifşa etdi. Ulu Öndərin imzaladığı fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə toxunulur, onların mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti açılır, ölkəmizin hansı tarixi ədalətsizliklərlə üzləşdiyi yeni nəsillərə anladılır, xalqımızın qarşılaşdığı müsibətlərin tarixinə, siyasi və çağdaş aspektlərinə nəzər salınır. Eyni zamanda, bu fərman terrorizmə, soyqırımına qarşı mübarizə aparmaq üçün Ulu Öndərin müəyyən etdiyi bir yoldur. Azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənədlə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Bu fərman həm də uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətləri açmış, xalqımızın qan yaddaşını təzələmişdir. Məlum olduğu kimi, xalqımız sovet dövründə uzun illər bu gerçəkliklərdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Hətta dəhşətli soyqırımın qurbanı olmuş minlərlə soydaşımızın uyuduğu qəbiristanlığın üstündə park salınmışdır. Bu mənada, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin imzaladığı fərman 200 illik işğal və soyqırımı siyasətini açıb göstərən tarixi sənəd olmaqla yanaşı, xalqımızın öz milli-mənəvi dəyərlərinə, tarixi köklərinə, torpağına və Vətəninə bağlılığı baxımından da əhəmiyyətlidir. Fərman türk dünyasında bu məsələ ilə bağlı rəsmən bəyan edilən ilk hüquqi-siyasi sənəd olmaqla yanaşı, həm də tədqiqatçı alimləri yeni fəaliyyət yönümündə istiqamətləndirən dövlət sənədi oldu.

Ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı, deportasiya və işğal siyasətinin intensivliyi bu gün də zəifləməmiş, bədnam qonşularımız təbliğat və qarayaxma kampaniyasını bir az da gücləndirmişlər. Ermənilər Avropa və Amerikadakı lobbi imkanlarından yararlanaraq "əzabkeş erməni milləti" obrazını yaratmaqda davam edir, bütün yolverilməz vasitələrdən istifadə edərək əsil soyqırımı haqqında həqiqətləri təhrif etməyə çalışırlar.

Son illərdə bunun qarşısını almaq üçün erməni saxtakarlığının dünyada ifşa olunması istiqamətində Azərbaycan dövlətinin fəaliyyəti daha da güclənmiş, ermənilərə qarşı ideoloji əks-hücum effektiv xarakter almışdır. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Sərəncamı bu işlərin vahid və sistemli surətdə aparılmasına imkan yaratmışdır. Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət bu gün Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prinsipiallıqla davam etdirilir. Dövlət başçısı bütün görüşlərində, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən erməniləri ifşa etmiş, soyqırımı cinayəti törədənləri və ona göz yumanları kəskin tənqid etmiş, dünya ictimaiyyətini erməni riyakarlığına son qoymağa çağırmışdır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin azərbaycanlıların soyqırımı günü ilə bağlı xalqa müraciətlərində ermənilərin müxtəlif illərdə dinc azərbaycanlılara qarşı soyqırımı həyata keçirmələri, soydaşlarımızın yurd-yuvalarından didərgin salınması, ərazilərimizin işğalı, erməni şovinist millətçilərinin xalqımıza qarşı təcavüzünün, onun ağır nəticələrinin yüz minlərlə soydaşımızın taleyində özünü büruzə verməsi, Ermənistanın və havadarlarının təcavüzkar siyasətinin iflasa məhkum olması, bunun hazırkı dünya siyasətinin aparıcı meyilləri ilə ziddiyyət təşkil etməsi qeyd olunmaqla yanaşı, belə bir zamanda dövlətin və hər birimizin qarşısında duran başlıca vəzifələr göstərilir.

Qarşımızda duran əsas vəzifələr xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. Bunun üçün isə yalnız möhkəm və yenilməz milli birlik tələb olunur. İnanırıq ki, vaxt gələcək dünya birliyi ermənilərin Azərbaycan xalqına qarşı tarixən törətdiyi cinayətlərə, soyqırımına obyektiv qiymət verəcək.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Tarix yazan oğullar*

# "Qan tökülməyən torpaqdan Vətən olmaz"



***Qanları ilə şanlı tarix yazan, ölməzlik qazanan şəhidlərimizin evlərini ziyarət etmək, valideynləri, övladları, bacıları, qardaşları ilə söhbət aparmaqla xatirələrini dinlədiyimiz zaman onların keçirdikləri hüznlə yanaşı, qürur hissini də yazmaqda çətinlik çəkirəm. Onlara təsəlli verərək "Sizin övladınız, qardaşınız, atanız Vətən uğrunda canından keçib, şəhid olub. Xalqımız hər zaman onlarla qürur duyur. Onlar hər birimizin qəlbində əbədi yaşayacaqlar" kəlmələrini söyləmək belə ağırdır. Bu anaların, ataların, bacı və qardaşların duyğularını ifadə etməkdə qələm də aciz qalır. Şəhid atası ilə öyünən, baş verənlərdən xəbərsiz olan qayğısız, məsum uşaqların ürkək baxışlarına baxmaq da adamı duyğulandırır...***

Torpaqlarımızın qorunması, ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını qurban vermiş şəhidlərimizin keçdiyi döyüş yolu gənc nəsillərə həmişə örnək olub. Qəhrəmanlarımızın şərəfli döyüş yolunu gələcək nəsillərə çatdırmaq, onlarda vətənpərvərlik hissini formalaşdırmaq, şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq hər bir Azərbaycan vətəndaşının ən müqəddəs borcudur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin "Şəhidlərimizin qəhrəmanlığı nəticəsində bu gün bizim bayrağımız azad edilmiş torpaqlarda ucalır" fikri bir daha qədirbilən xalqımızın öz qəhrəman övladlarına verdiyi dəyərin bariz nümunəsidir.

Ölümün üzünə göz qırpmadan, dik baxa-baxa kəfənlərini əyinlərinə geyinib şüurlu şəkildə torpaqlarımızın azadlığı uğrunda ölümün ağuşuna atılan cəsarətli və mərd oğullarımızdan biri də ordumuzun əməliyyat tədbirlərində igidliyi ilə şöhrət qazanan şəhid Davud Telman oğlu Qiyaslıdır. Davud göstərdiyi igidlik və fədakarlıq nümunələri ilə Vətənə layiqli oğul olduğunu əməli ilə təsdiq etdi. Hər kəsə fəxarət hissi yaşatdı. Valideynlərinə, doğmalarına başucalığı gətirdi.

Şəhid Davud Qiyaslı 12 yanvar 2003-cü ildə Cəlilabad rayonunun Ağusəm kəndində əməksevər bir ailədə doğulub. Zamanı çatanda həmyaşıdları kimi, o da orta məktəbə gedib. Dərslərindən yaxşı qiymətlər alıb. Məsuliyyətli olması, intizamlı davranışı, məktəbin ictimai həyatında fəal iştirakı onu müəllim və şagird kollektivinə sevdirib. Ailənin sevimli, zəhmətkeş övladı olub. Vətəninə, torpağına, elinə, obasına əsil oğul kimi yetişib. Vətənə övladlıq borcunu da şərəflə, vicdanla yerinə yetirib. O, Hərbi Dəniz Qüvvələrində həqiqi hərbi xidmət keçib. Daima döyüş bacarıqlarını artıran, təlimlərdə yüksək göstəricilərə nail olan hazırlıqlı, vətənpərvər matros Davud Qiyaslı komandirlərinin, əsgər yoldaşlarının dərin rəğbətini qazanıb. Gənc matros fiziki cəhətdən güclü, möhkəm iradəyə malik olub.

Ötən il 19-20 sentyabrda Qarabağda Ermənistan silahlı birləşmələrinə və separatçı qüvvələrə qarşı ordumuzun keçirdiyi əməliyyat tədbirləri zamanı Davud Qiyaslı döyüş tapşırıqlarının yerinə yetirilməsində şəxsi igidlik nümunələri göstərir. Qorxmazlığı, cəsarəti ilə hər kəsi heyrətləndirir. Gənc matros düşmənlə mübarizədə əzmlə döyüşür. Xocalı rayonunun Xanabad kəndi uğrunda gedən ağır döyüşlərdə şəhadətə qovuşur. Bu gün şəhid Davudun ruhu azad Qarabağımızda dolaşır. Xalqımızın gələcək övladlarının azad, xoşbəxt yaşaması üçün canından keçdi. "Qan tökülməyən torpaqdan Vətən olmaz" deyimdi Davud. 44 günlük Vətən müharibəsində minlərlə gəncimizin getdiyi müqəddəs yolu o da seçdi. Şəhidlik zirvəsinə yüksəlməyi özünə şərəf bildi.





Ötən il ordumuzun keçirdiyi əməliyyat tədbirlərində şəhid olan Hərbi Dəniz Qüvvələrinin matrosu Davud Qiyaslı doğulduğu Cəlilabad rayonunun Ağusəm kənd qəbiristanlığında böyük izdihamla torpağa tapşırıldı.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə matros Qiyaslı Davud Telman oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.

Anası Müşviqə, qardaşı Vətən, bacısı Canənə Davudun orduya, bayrağa, torpağa sevgisindən, döyüş bacarığından, mənəvi, fiziki cəhətdən güclü, iradəli olmasından danışdılar. Onun yoxluğuna hələ də inanmadıqlarını dedilər. "Davud Vətən müharibəsində rayonumuzdan şəhid olan oğulların dəfnində dostları ilə birlikdə fəal iştirak etmişdi. Onda hələ orta məktəbdə oxuyurdu. Şəhid ailələrini həmişə ziyarət edirdi. Vətən müharibəsi şəhidlərinin müqəddəs, şərəfli, şanlı ömür yolunu özünün ömür yolu bildi. Torpaqlarımızın bütövlüyü naminə canını qurban verdi. Davud qətiyyətli, yolundan dönməz bir oğul idi. Onunla qürur duyuruq. Oğul düşmən çəpəridir. Vətən sağ olsun. Bütün şəhid ailələrinə səbir diləyirik".

"Vətən sağ olsun", "Oğul düşmən çəpəridir" deyən atalar, analar Azərbaycana mərd, igid oğullar yetirib, onları "Vətən üçün böyütmüşük" dedilər. Qədirbilən xalqımız Böyük Zəfərin qürurunu bizə yaşadan şəhidlərimizin adını daim uca tutacaq, onların əziz xatirəsini dərin hörmət və ehtiramla yad edəcək. Ölməzlik qazanan matros Davud Qiyaslının müqəddəs adı da əbədiləşdiriləcək, qəhrəmanlığı tarix yazan oğulların dastanlarında oxunacaq.

**Lalə HÜSEYNOVA,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Ukrayna Türkiyənin beşinci nəsil qırıcı təyyarələrini almaq istəyir



Gələcəkdə Ukrayna Türkiyənin beşinci nəsil KAAN qırıcılarını almaq istəyir və onlardan harada istifadə edəcəyini artıq bilir.

Bu fikri Ukraynanın Türkiyədəki səfiri Vasili Bodnar söyləyib.

O bildirib ki, KAAN-ın F-35 və F-22 ilə rəqabət aparmaq üçün tam potensialı vardır.

"Beləliklə, dediyimiz kimi, uğur qazana bilsək və həm Şərqdə, həm də Qərbdə üçüncü tərəflərin təsirinin qarşısını ala bilsək, regionun ən güclülərindən biri olacağıq", - deyə səfir əlavə edib.

### Yens Stoltenberq: NATO Ukraynaya bir milyon dron verəcək



Şimali Atlantika Alyansının (NATO) bir qrup ölkəsi hərbi yardım çərçivəsində bir milyon pilotsuz uçuş aparatını ukraynalı hərbçilərə vermək istəyir.

Bu barədə NATO-nun Baş katibi Yens Stoltenberq brifinqdə məlumat verib. O bildirib ki, fevralın 15-də Ukrayna-NATO Şurasının növbəti iclası keçirilib. Xüsusilə Ukraynanın müdafiə naziri Rustem Umerov cəbhədəki vəziyyət barədə müttəfiqlərini məlumatlandırıb. NATO ölkələri isə davamlı dəstəyin vacibliyini vurğulayıb. Y.Stoltenberq onu da deyib ki, son bir neçə gündə Kanada, Finlandiya və Norveç də daxil olmaqla müttəfiqlər Ukraynaya F-16 üçün avadanlıq və ehtiyat hissələri, həmçinin hava hücumundan müdafiə avadanlıqları daxil olmaqla yeni hərbi yardım paketləri elan ediblər.

"Bir qrup müttəfiq Ukrayna üçün bir milyon pilotsuz təyyarə tədarük etmək məqsədilə birləşir. 20 NATO müttəfiqi də minalardan təmizləmə üçün koalisiya yaratmaq barədə razılığa gəlib. Bütün bunlar ukraynalıların həyatını xilas etməyə kömək edəcək", - deyə Baş katib əlavə edib.

Xatırladaq ki, əvvəllər NATO ukraynalı hərbçilərə kömək etmək üçün 20-dən çox ölkənin qoşulduğu koalisiya yaradıb.

### NATO ölkələri Kiyev üçün silah istehsalı üzrə 10 milyard dollarlıq müqavilə imzalayıb



NATO ölkələri Kiyevə yeni silah-sursat tədarükü üçün 10 milyard dollarlıq müqavilə imzalayıb.

NATO-nun Baş katibi Yens Stoltenberq bu barədə alyansın müdafiə nazirlərinin iclasına gələrkən bildirib.

"Bu gün Ukrayna-NATO Şurasının iclasında Kiyevə yardım məsələsini müzakirə edəcəyik. NATO ölkələri son aylar silah və sursat istehsalı üzrə razılığa gəlib və bir sıra müqavilələr imzalayıb", - Yens Stoltenberq belə deyib.

O qeyd edib ki, Kiyevə növbəti silah tədarükü xeyriyyəçilik deyil, NATO-nun təhlükəsizliyinə qoyulan sərmayədir.

"Mən NATO ölkələrinin Kiyevə daha çox yardım etməsini, hava hücumundan müdafiə sistemləri və sursat göndərməsini dəstəkləyirəm. Avropa İttifaqının Ukraynaya dörd il müddətinə 50 milyard avro ayırmaq qərarını alqışlayır və ABŞ Konqresinin Ukraynaya dəstək paketi üzrə razılığa gəlməsini gözləyirəm", - deyə Alyansın Baş katibi əlavə edib.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan hərbçiləri Özbəkistanda keçirilən kursda iştirak edirlər



Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Özbəkistanın Daşkənd vilayəti ərazisində "Dağ rəhbəri" kursunda iştirak edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Özbəkistan Müdafiə Nazirliyinin "Çimqan" Dağ hazırlığı üzrə təlim-tədris mərkəzində keçirilən kursda iştirakçılar dağ avadanlıqlarından səmərəli istifadə, qayaya qalxma və enmə, təbii dağ maneə dəhlizlərini aşmaq, dağlıq şəraitdə atəş açmaq, xəsarət alanlara ilkin tibbi yardımın göstərilməsi və təhlükəsiz təxliyə üzrə əldə etdikləri nəzəri bilikləri təlim sahəsində praktiki olaraq icra edərək gücləndirirlər.

"Dağ rəhbəri" kursunda Azərbaycan hərbçiləri yüksək peşəkarlıq nümayiş etdirirlər.

## Müdafiə Nazirliyi və TƏBİB-in birgə məlumatı

### Tibbi-profilaktik tədbirlər məqsədilə andiçmə mərasimləri qapalı keçiriləcək

Fevralın 18-də Azərbaycan Ordusunun təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimləri qapalı şəraitdə keçiriləcək.

Məlum olduğu kimi, Azərbaycanın müxtəlif regionlarında qızılcaya, eləcə də mövsümi xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma halları qeydə alınır. Hazırda ölkəmizin səhiyyə qurumları tərəfindən əks-epidemik və profilaktik tədbirlərin aparılması davam etdirilir. Əhalinin sağlamlığının qorunması və kəskin respirator virus infeksiyalarına yoluxma hallarının qarşısının alınması üçün peyvəndlənmə ilə yanaşı, yoluxma hallarını nəzərə alaraq qapalı məkanlarda sıx toplaşma tövsiyə olunmur.

Azərbaycan Ordusunda hərbi qulluqçuların sağlamlığına xüsusi diqqət yetirilir, şəxsi heyətin respirator virus infeksiyalara yoluxma hallarının qarşısını almaq məqsədilə hərbi hissələrdə mütəmadi olaraq zəruri profilaktik tədbirlər görülür.

Görülən tədbirlər çərçivəsində valideynlərin, eləcə də ictimaiyyət və media nümayəndələrinin hərbi hissələrə girişi, o cümlədən andiçmə mərasimlərində iştirakı məhdudlaşdırılacaq.

Vətəndaşlarımızdan bu qərarı anlayışla qarşılamağı və andiçmə mərasimlərinə gəlməməyi xahiş edirik.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# İdman

## Avropa Liqası: "Qarabağ" Portuqaliyada tarixi qələbə qazanıb



"Qarabağ" UEFA Avropa Liqasının pley-off mərhələsində ilk oyununu keçirib.

Azərbaycan çempionu Portuqaliyada "Braqa"nın qonağı olub.

"Munisipal" stadionunda oynanılan görüşü danimarkalı baş hakim Morten Kroq idarə edib. İlk dəfə Avropa Liqasının pley-off mərhələsində çıxış edən "Qarabağ" səfərdə tarixi qələbə qazanıb - 4:2.

Hesabı 21-ci dəqiqədə Ağdam klubunun yarımmüdafiəçisi Marko Yankoviç açıb. Monteneqrolu futbolçu penalti zərbəsini dəqiq yerinə yetirib. Meydan sahibləri 44-cü dəqiqədə Simon Banzanın vurduğu qolla tarazlığı bərpa ediblər. İlk hissə bu hesabla başa çatıb.

İkinci yarıya da üstün başlayan "Qarabağ" 54-cü dəqiqədə ikinci topu rəqibin qapısından keçirib. Abdullah Zubir cərimə meydançasındakı qarışıqlıqdan məharətlə yararlanaraq Mateusun qoruduğu qapıya yol tapıb. Cəmi 9 dəqiqə sonra Olavio Juninyo braqalıları yenidən meydanın mərkəzinə dəvət edib. 69-cu dəqiqədə Zubir özünün 2-ci, komandasının 4-cü qoluna imza atıb. Matçda son nöqtəni 90+1-ci dəqiqədə penaltidən fərqlənən Joau Moutinyu qoyub.

Qeyd edək ki, komandalar arasında cavab görüşü fevralın 22-də Bakıda keçiriləcək.

## Avropa çempionatı: Azərbaycanın qadın güləşçisi qızıl medal qazanıb



Azərbaycanın qadın güləşçisi Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Avropa çempionatında qızıl medal qazanıb.

50 kiloqram çəki dərəcəsində çıxış edən Mariya Stadnik finalda türkiyəli Evin Demirhana qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Millinin digər üzvü Alyona Kolesnik (59 kiloqram) qızıl medal uğrunda görüşdə ukraynalı Alina Filipoviçlə üz-üzə gələcək.

Qeyd edək ki, Azərbaycan fevralın 18-dək davam edəcək Avropa çempionatında 25 güləşçi ilə təmsil olunur.

## Azərbaycan para-atleti beynəlxalq turnirdə gümüş medal qazanıb




Azərbaycan para-atleti Oloxan Musayev Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən Qran-Pri turnirində gümüş medal qazanıb.

İdmançı F55 kateqoriyası üzrə nüvə itələmə növündə 10.92 metr nəticə göstərib.

Qeyd edək ki, Oloxan Musayev artıq "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya əldə edib.

## Azərbaycan şahmatçısı beynəlxalq turnirdə 2-ci yeri tutub



Azərbaycanın qadın şahmatçısı Gülnar Məmmədova beynəlxalq yarışda gümüş medal qazanıb.

33 yaşlı qrosmeyster "Swiss Queens Wednesday" onlayn turnirində ikinci yeri tutub.

Yarışda 8,5 xal toplayan G.Məmmədova yalnız rusiyalı Anastasiya Bodnarukdan (9,5) geri qalıb.

İlk "üçlüy"ü Azərbaycan təmsilçisi ilə eyni xala malik hindistanlı Harika Dronavalli tamamlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Fiziki hazırlıq

### "Sağlam, güclü və iradəli olmaq üçün idmanla mütəmadi məşğul olmalısan"

Sağlamlığının qorunub saxlanılmasına xidmət etdiyi üçün hamı idmanı sevir. İdman təkcə fiziki cəhətdən insanların güclənməsinə və inkişaf etməsinə deyil, həmçinin onları gündəlik həyatda daha hazırlıqlı və mütəşəkkil edir. İdmanla məşğul olanların sağlamlıqları möhkəmlənir, onlarda ruh yüksəkliyi yaranır, çevik, dözümlü və iradəli olurlar.

Bu səbəblərdən rəşadətli Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların fiziki hazırlıq məşğələlərinə xüsusi önəm verilir. Günün nizam qaydalarına uyğun olaraq şəxsi heyət səhər və axşam məşq edir. "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Qürbət Babayevin nəzarəti altında əsgərlər turnikdə dartınır, paralel qollarda güclərini sınayır və digər idman təmrinlərini həvəslə yerinə yetirirdilər. Hamısı tapşırıqları asanlıqla icra edir. Məşğələdən sonra şəxsi heyətlə söhbətləşdik.

Məşğələ rəhbəri Q.Babayev fiziki hazırlıq məşğələsinin vacibliyindən danışdı. Bildirdi ki, gücün, ümumi güc və dözümlülüyünün, hərəkətlərdə çeldiliyə üstünlük verilməklə inkişaf etdirilməsi, maneələrin dəf edilməsi, qumbaraatma, marşların, piyada, sıçrama marşlarının dərətəpəli ərazidə yerinə yetirilməsinə hazırlıq, böyük fiziki güc tələb edən və psixoloji gərginliklərin olduğu şəraitlərdə, kollektiv hərəkətlərdə mütəşəkkilliyin tərbiyə edilməsindən və vərdişlərin təkmilləşdirilməsindən, əlbəyaxa döyüş hərəkətlərinə hazırlığın formalaşdırılması, dözümlülüyün yüksəldilməsi, qətiyyətliliyin, cəsurluğun, təşəbbüskarlığın, zirəkliyin inkişaf etdirilməsi və emosional sabitliyin yüksəldilməsindən ibarətdir.

- Bu vəzifələri əsgərlərimizə aşılamaq üçün gündə iki dəfə - səhər və axşam fiziki hazırlıq məşğələsi keçirik. Bunun üçün hər cür şərait yaradılıb. Hava şəraiti yaxşı olduğu zaman bütün standartlara cavab verən idman şəhərciyində, pis olduğu halda müasir idman qurğuları ilə təchiz olunan idman zalında keçirik. Bunun nəticəsidir ki, onların hər biri istənilən idman tapşırığını asanlıqla yerinə yetirir.



Əsgər Cavidan Hacıyev idmana olan sevgisindən danışdı. Bildirdi ki, idman onun həyatında böyük rol oynayır. "Sağlam, güclü və iradəli olmaq üçün idmanla müntəzəm məşğul olmalısan. "Mülki həyatda daim idmanla məşğul olurdum. Xidmətə başladığım hərbi hissədə şəraiti görəndə çox sevindim. Sosial-məişət şəraitimiz də yüksək səviyyədədir. Həm idman şəhərciyində, həm də idman zalında fiziki vərdişlərimizi təkmilləşdiririk. Bütün bunların nəticəsidir ki, bu gün mənəvi-psixoloji, döyüş, atəş və fiziki hazırlıqlarımız yüksək səviyyədədir".

Əminliklə deyə bilərik ki, əsgərlər qarşıya qoyulacaq istənilən döyüş tapşırığını asanlıqla icra etməyə hazırdırlar. Azərbaycan əsgəri həm Vətən müharibəsində, həm də həyata keçirilən digər döyüş əməliyyatlarında öz gücünü bütün dünyaya göstərdi.

Əsgər Abdulsəməd Nəcəfov dedi ki, hərbi qulluqçular fiziki cəhətdən güclü olmalıdır. Çünki onlar Vətəni qorumaq kimi şərəfli vəzifəni yerinə yetirirlər. Qarşıya qoyulan vəzifənin öhdəsindən layiqincə gəlmək üçün hərtərəfli güclü olmaq lazımdır. Bunun üçün peşəkar komandirlərimizin rəhbərliyi altında keçirilən bütün dərs və məşğələlər sayəsində təcrübəli əsgər kimi formalaşmışıq.

Hərbi xidmətdə hər əsgərin yerinə yetirməli olduğu vəzifələr var. Nizamnamələrin tələblərinə, komandirlərin, zabitlərin əmr və göstərişlərinə sözsüz əməl etmək, Hərbi Andа sədaqət,... Bunlarla yanaşı, döyüş və mənəvi-psixoloji hazırlığı yüksəltmək də əsgərin xidməti vəzifələrindəndir. Bütün bunlarla bir sırada əsgər fiziki hazırlığını da artırmalıdır. Kiçik zabitlər bu zərurətin fasiləsiz yerinə yetirilməsini təmin edirlər.

Hərbi xidmətə Göyçay rayonundan çağırılan əsgər Azər Aydınov bildirdi ki, fiziki hazırlıq sağlamlıqdır. Mütəmadi idman insanın güc, güvvət və iradəsini artırır. Bu səbəbdən də ordu sıralarında fiziki hazırlığa xüsusi önəm verilir. Müdafiə Nazirliyinin rəhbərliyinin əmr və tapşırıqlarına əsasən, hərbi hissəmizdə müasir alət və qurğularla təchiz olunmuş idman şəhərciyi və otağı yaradılıb. Biz yaradılan şəraitdən səmərəli istifadə edərək, gücümüzü, dözümlülüyümüzü artırırıq.

**Kapitan Orxan HÜSEYNLİ "Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Qəhrəmanov Rüstəm Mürsəl oğluna məxsus AD № 0023165 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini mayor Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
baş leytenant Oruc MUSTAFAYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 40
Nüsxə 4646